**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT 73/76.**
**DOI: 10.52094/3005-9941.44.2023.0168**

**Rəna Sulduz qızı Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Doktorant**
**E-mail: renamammadova088@gmail.com**

# "SƏRT ÜSLUB"UN AZƏRBAYCAN RƏNGKARLIĞI ESTETİKASINA TƏSİRİ

**Xülasə:** Təqdim edilmiş məqalədə XX əsr Azərbaycan təsviri sənət tarixində xüsusi əhəmiyyət kəsb edən "sərt üslub"un təsiri təhlil edilmişdir. Yazıda XX əsrin 50-60-cı illərində yaranmış yeni üslubun müxtəlif nümayəndələrinin yaratmış olduğu əsərlərin müqayisəli təhlili öz əksini tapmışdır. Təhlil edilən əsərlər mövzu və janr baxımından müxtəlifliyi ilə seçilir.

**Açar sözlər:** təsviri sənət, rəngkarlıq, sərt üslub, Tahir Salahov, XX əsr, rəssam

XX əsrin 50-60-cı illərində formalaşan və "sərt üslub" adlandırılan realistik bədii şərh ənənəviləşən üslubun Azərbaycan rəngkarlığına təsirini araşdırmaq məqsədilə təsviri sənət tarixinə nəzər yetirmək və dövrə uyğun müxtəlif janr və üslubların müqayisəli təhlilini aparmaq zərurətini şərtləndirmişdir. Azərbaycan təsviri sənət tarixi e.ə VIII- V əsrlərə aid Qobustan petroqlifləri, Gəmiqaya və Kəlbəcər qaya təsvirləri ilə başlayaraq janr və üslub müxtəlifliyi baxımından uzun və zəngin inkişaf yolu keçmişdir. Tarixin əvvəlki dövrlərində Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələri ənənələrə sadiq qalaraq təsviri sənəti inkişaf etdirmiş, dünya incəsənət tarixinə nadir nümunələr bəxş etmişdirlər.

Azərbaycan təsviri sənətinin əvəzsiz nümunələri arasında orta əsrlərdə bu sahənin görkəmli nümayəndələri Sultan Məhəmməd, Müzəffər Əli, Mir Seyid Əli və digərlərinin miniatür üslubunda yaratmış olduqları nadir əsərlərə rast gəlinir. Miniatür üslublu əsərlərin mövcudluğu XIX əsrə qədər davam edən inkişaf dövrü keçmişdir. Təsviri sənət növlərindən biri olan rəngkarlıqda gerçək dünyanın, boyaların, məkanın, işığın, havanın və əşyaların fiziki formalarının həcmi canlılıq qazanır. Rəngkarlıq müxtəlif bədii-estetik funksiyalarına görə – monumental, dəzgah, dekorativ və teatr-dekor rəngkarlığı növlərinə bölünür. Dəzgah rəngkarlığı daha geniş yayılmış növ hesab edilir. Monumental rəngkarlıq əsərlərindən fərqli olaraq, dəzgah rəngkarlığı əsərlərini təqdim və nümayiş etdirmək üçün çoxsaylı vasitə və imkanlar mövcuddur. Rəngkarlıq sənəti məzmun etibarilə- mifoloji, məişət, mənzərə, portret, natürmort, tarixi və digər janrlara bölünür. Bütün bu janrların inkişafı dəzgah rəngkarlığının inkişafı bütün orta əsrlərə təsadüf edir.

Azərbaycan təsviri sənətində dəzgah rəngkarlığının görkəmli nümayəndələrindən biri Mirzə Qədim İrəvani hesab olunur. XVIII-XIX əsrlərdə bədii üslub kimi qəbul edilən realizmə meylli miniatür üslubu, həmin dövrlərdə M.Q. İrəvani və M.M.Nəvvabın müxtəlif janrlı lövhələrində rast gəlinir. XX əsrin əvvəllərində yaranan realizm ənənələri isə ilk professional təhsil alanlardan hesab olunan Bəhruz bəy Kəngərlinin portret və mənzərələrində müşahidə edilir.

XIX əsrin tanınmış rəssamları - M.Q.İrəvani, M.M.Nəvvab və X.Natəvanın yaradıcılığında realist üslubun inkişafı daha da güclənmişdir. Azərbaycanın şimal hissəsinin Rusiyaya birləşdirilməsi ilə realist meyllər daha da genişləmişdir. XX əsrdə 1920-ci ildə Bakıda ilk rəssamlıq məktəbi açılmaqla, təsviri incəsənətdə yeni növ və janrlar yaranır. Tanınmış Azərbaycan rəngkarları arasında - Ə.Əzimzadə, B.Kəngərli, M.Abdullayev, S.Bəhlulzadə, B.Mirzəzadə, V.Səmədova, T.Salahov, G.Brijatyuk, D.Kazımov və digərlərinin adını çəkmək olar.

II Dünya müharibəsi illərində Azərbaycan rəssamlarının yaradıcılığında siyasi plakat, karikaturalar və satirik rəsmlər əsas yer tuturdu.



1. Böyükdaş dağı. Yallı



2. Sultan Məhəmməd
"Məhəmməd peyğəmbərin meracı" 1539-1543



3.Mirzə Qədim İrəvani
“Gənc oğlanın portreti”



4. Vəcihə Səmədova “İmtahan qabağı” 1958

Tarixi kökləri qədim dövrlərə əsaslanan Azərbaycan rəngkarlığı bütün janr və üslubların təsiri ilə formalaşmış, XX əsrin 50-ci illərində yaranan və inkişaf etməkdə olan “Sərt üslub”- a qədər uzun yol keçmişdir. Özündən əvvəlki bütün üslublardan kəskin şəkildə fərqlənən, dövrün “sosialist realizmi”nə etiraz əlaməti olaraq meydana çıxan və daha üstün mövqeyə malik olan yeni-sərt realizm üslubu XX əsr Azərbaycan təsviri sənətində dönüş nöqtəsi rolunu oynamışdır.

XX əsrin birinci yarısını əhatə edən Sosialist realizmi Sovet həyat tərzini tərənnüm və təbliğ edirdi. Sərt üslubdan fərqli olaraq, sosialist realizmi Sovetlər Birliyi incəsənətində əsas yaradıcılıq üslubu olaraq formalaşmış, ideologiya və təbliğatla sıx bağlı şəkildə inkişaf etmişdir. Üslubun əsas xarakterik xüsusiyyəti ölkənin sosial-mədəni, ictimai-siyasi həyatında baş verən hadisələrin dinamik inkişaf tempi ilə təsvir və təqdim etməklə ideallaşdırılmasıdır.

Azərbaycan incəsənətində sosialist realizminin əsas nümayəndələri B. Mirzəzadə, N. Əbdürrəhmanov, T. Tağıyev, M. Tağıyev, B. Əliyev, X. Səfərova və digərləri müxtəlif janrlı çoxsaylı əsərlər yaratmışlar.



**5. Böyükağa Mirzəzadə “Bakı”**



**6. Xalidə Səfərova “Süsənlər” 1965**

Yeni yaranan sərt üslubun ideoloqu və yaradıcısı tənqidçi və incəsənət tarixçisi Aleksandr Kamenski olmuşdur. A. Kamenski formalaşmış ənənəvi sərgi stereotiplərini dəyişməyə can atırdı. "Sərt üslub" – un əvəzsiz təmsilçiləri Tahir Salahov, Viktor Popkov, Pavel Nikonov, Geliy Korjev, Nikoloy Andronov, Aleksandr və Pyotr Solomin qardaşları olmuşdurlar. Onlar özlərini rəngkar, heykəltaraş Aleksandr Deynekanın erkən dövr yaradıcılığının davamçıları hesab edirdilər. A. Deyneka yaradıcılığının ilk mərhələsində modernizm üslubuna yaxın olsada, nəticədə Sosialist realizminin aparıcı nümayəndələrindən birinə çevrilmişdir. A. Deynekanın 1923-cü ildə yaratmış olduğu əsərin fotosunda rəssamın yaradıcılıq üslubunun 1920-ci illərdə modernizmə nə dərəcədə yaxın olduğunu bir daha əyani şəkildə görmüş oluruq. A. Deyneka yaradıcılığının ilk mərhələsində modernizm üslubuna yaxın olsada, nəticədə Sosialist realizminin aparıcı nümayəndələrindən birinə çevrilmişdir.



7.A. Deyneka "K. A. Vyalovun portret" 1923



8. A. Deyneka "Sevastopolun müdafiəsi" 1942

Azərbaycan təsviri sənət tarixində "Sərt üslub" Tahir Salahovun adı ilə bağlıdır. Dahi rəssam nəinki SSRİ məkanında və Azərbaycanda, ümumilikdə dünyada "sərt üslub"- un əsas yaradıcısı hesab edilir. Bununla belə sərt üsluba aid əsərləri təhlil edən zaman bu üslubda yaradılan ilkin əsərlərin həm də Tofiq Cavadov dəsti-xəttinə aid olduğu müəyyənləşir. Tofiq Cavadov yaradıcılığının müxtəlif dövrlərində əsasən sosialist realizmi üslubuna aid əsərlər yaratmışdır. Rəssamın "sərt üslub"-un xarakterik xüsusiyyətlərini əks etdirən əsərləri 1950-ci illərin əvvəllərinə aid edilir. "Sərt üslub"-un əsas xüsusiyyətləri müxtəlif məzmunlu əsərlərin yaradılmasında tünd rəng çalarlarından, sərt cizgi və xətlərdən istifadə edilməsidir. Azərbaycan təsviri sənətində Tofiq Cavadov və Tahir Salahov kimi iki dahi şəxsiyyətin yaradıcılığının kəsişmə nöqtəsi yeni cərəyan olan "sərt üslub"u formalaşdırır. Tahir Salahov sosialist realizminə zidd olan, tənqidi realizm mənasını ifadə edən sənət

cərəyanı istiqamətini inkişaf etdirir. Rəssam özü də "sərt realizm" yaradıcılıq üslubunu stalinizmdən sonra meydana çıxmış və həyat həqiqətlərinə əsaslanan yaradıcılıq istiqaməti hesab edirdi.



**9. T. Salahov "Növbədən qayıdanlar" 1957**

Görkəmli fırça ustası Tahir Salahovun "sərt üslub"da yaratmış olduğu əsərləri, yaradıcılıq üslubunun özünəməxsusluğu rəngkarlıq sənəti ənənələrinə yenilik və fərqlilik gətirməklə Azərbaycan rəngkarlığının dünya miqyasında tanınmasına nail olmuşdur. Akademik İsa Həbibbəyliyə görə - Xalq rəssamı Tahir Salahov Azərbaycan təsviri sənətinin inkişafında Bəhruz bəy Kəngərlidən sonrakı və Fərhad Xəlilovdan əvvəlki mərhələnin bənzərsiz zirvəsidir.

Xalq rəssamı Tahir Salahov yaradıcılığı ilə özündən sonra gələn nəslin nümayəndələrinə zəngin və etibarlı bədii irs əmanət etmiş oldu. Zamanında gənc rəssamlarla yanaşı, özündən çox-çox yaşlıların da "sərt üslub"a meyllənməsi sübut etdi ki, sənət məkanına hamını qane edə biləcək estetik tutumlu bədii ifadə vasitəsi gəlmişdir...

## Ədəbiyyat siyahısı

1. Kərimov K.C, Əfəndiyev R.S, Rzayev N.İ, Həbibov N.D (1992) Azərbaycan incəsənəti. Bakı: İşıq.
2. Gülməmmədli R (2013) Tofiq Cavadov. İstanbul: Mega Basım Yayın AŞ,
3. Xəlilzadə F. F "Sahilə qayıdan ləpələr" (2010) məqalə. Link:
http://www.anl.az/down/meqale/azerbaycan/2010/may/121212.html
4. Həbibbəyli İ.Ə "Xalq rəssamı Tahir Salahov: Sərt realizmdən romantizmə" Link:
http://www.anl.az/down/meqale/azerbaycan/2018/noyabr/620017.html

**Рена Сулдуз кызы Мамедова**

## Влияние сурового стиля на эстетику азербайджанской живописи

**Резюме:** В представленной статье анализируются общие итоги влияния «сурового стиля», имеющего особое значение в истории азербайджанского изобразительного искусства XX века. В статье отражен сравнительный анализ произведений, созданных различными представителями нового стиля, возникшего в 50-60-х годах XX века. Анализируемые произведения отличаются своим тематическим и жанровым разнообразиями.

**Ключевые слова:** изобразительное искусство, живопись, суровый стиль, Таир Салахов, XX век, художник.

**Rana Sulduz Mammadova**

## The effect of the severe style on the aesthetics of the Azerbaijani painting

**Summary:** The presented article analyzes the general results of the influence of the “severe style”, which has special significance in the history of Azerbaijani fine art of the twentieth century. It is reflected comparative analysis of works created by various representatives of the new style that emerged in the 50-60s of the XX century. The analyzed works are distinguished by their thematic and genre diversities.

**Key words:** fine art, painting, severe style, Tahir Salahov, XX century, artist

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29.07.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**